**Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Belarus Respublikasının Milli Statistika Komitəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında**

# S A Z İ Ş

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Belarus Respublikasının Milli Statistika Komitəsi (bundan sonra - Tərəflər) gələcəkdə statistika sahəsində əməkdaşlığın inkişaf etdirilməsində, məlumat mübadiləsinin genişləndirilməsində və iki ölkənin statistika orqanlarının işində qarşılıqlı əlaqələrin möhkəmləndirilməsində qarşılıqlı maraqlı olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

## Maddə 1

Tərəflər əməkdaşlığı aşağıdakı formalarda həyata keçirirlər:

- statistik araşdırmaların metodoloji və xüsusi məsələləri üzrə statistik nəşrlərin mübadiləsi;
- ölkədə sosial-iqtisadi vəziyyət və onun inkişafı haqqında statistik nəşrlərin və çap məhsullarının (illik məcmuələrin, külliyyatların və s.) mübadiləsi;
- statistik məlumatlar bazasının strukturu və idarə edilməsi də daxil olmaqla, informasiya texnologiyalarının istifadə edilməsi və yeni informasiya texnologiyalarının tətbiq edilməsi üzrə təcrübə mübadiləsi;
- statistika sahəsində yeni metodlar və müasir informasiya cəmiyyətinin tələblərinə statistik metodların uyğunlaşdırılması haqqında məlumat mübadiləsi;
- beynəlxalq proqramlar və layihələrdə iştirak məsələlərində qarşılıqlı fəaliyyət;
- statistik tədqiqatların, siyahıyaalmaların və araşdırmaların aparılması, statistik göstəricilər sistemi sahəsində işləmələr və təcrübə mübadiləsi.

## Maddə 2

Tərəflər zəruri hallarda təcrübə mübadiləsi aparacaq və hazırkı Sazişin yerinə yetirildiyi müddətdə ortaya çıxan sualları müzakirə edəcəklər.

## Maddə 3

Tərəflər zəruri hallarda hazırkı Saziş çərçivəsində fəaliyyətin əlaqələndirilməsinin daha da dərinləşdirilməsi məqsədilə, zərurət olduqda öz nümayəndələrindən ibarət işçi qrupu yarada bilərlər.

## Maddə 4

Bu Saziş çərçivəsində bir Tərəfin əldə etdiyi informasiya, informasiyanı təqdim etmiş Tərəfin yazılı razılığı olmadan üçüncü tərəflərə verilə bilməz.

## Maddə 5

Bu Sazişə Tərəflərin qarşılıqlı razılığı ilə onun ayrılmaz tərkib hissəsi olan, 7-ci maddədə müəyyən olunan qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən dəyişikliklər və əlavələr edilə bilər.

## Maddə 6

Bu Sazişin müddəalarının təfsiri və ya tətbiqi zamanı yarana biləcək fikir ayrılıqları Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll ediləcəkdir.

## Maddə 7

Bu Saziş, onun qüvvəyə minməsi üçün Tərəflərin zəruri olan dövlətdaxili prosedurlarının yerinə yetirilməsi barədə diplomatik kanallarla sonuncu yazılı bildiriş alındığı gündən qüvvəyə minir və üç il ərzində qüvvədə qalır. Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə diplomatik kanallar vasitəsilə digər Tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti üç illik müddətlərə uzadılacaqdır.

Bu Saziş Bakı şəhərində "3" iyun 2010-cu il tarixində iki əsl nüsxədə, hər biri Azərbaycan və rus dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

| | |
|---|---|
| **Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi adından** | **Belarus Respublikasının Milli Statistika Komitəsi adından** |